UOT 821.512.162

**Bəkirov Novruz,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant,*
*Bakı ş., İstiqlaliyyət küç., 26*
e-mail: bekirov.novruz@mail.ru

# MOLLA CÜMƏNİN ƏDƏBİ İRSİ, ƏSƏRLƏRİNİN NƏŞRİ VƏ TƏDQİQ TARİXİ

*(sənədlər və əsərləri əsasında)*

**Açar sözlər:** *Molla Cümə, klassik, ədəbi irs, nəşr, tədqiq tarixi*

**Giriş:**Molla Cümə xüsusi istedadı ilə həmyaşıdları arasında seçilmişdir. Gənc yaşlarından poeziyaya olan sevgisi onun şair kimi yaradıcılıqla məşğul olması ilə nəticələnmişdir. Bölgədə aşıq, şair kimi məşhurlaşan Molla Cümənin şöhrəti tezliklə Azərbaycanın digər bölgələrinə, Dağıstana, Gürcüstana, İrana, Türkiyəyə və başqa bölgələrə yayılmağa başlamışdır. Klassik Azərbaycan ədəbiyyatına yeniliklər gətirmiş şair Molla Cümənin ədəbi yaradıcılığı XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərinə təsadüf edir. Öz bəstələri ilə el şənliklərindəki çıxışları şairi, tezliklə həm də aşıq kimi məşhurlaşdırır. Şair el şənliklərində çıxışlar edər, fikirlərini xalqla bölüşərdi. Molla Cümə xalq qarşısındakı çıxışlarında Azərbaycanın digər tanınmış şair və aşıqların sözlərini də ifa edərdi. Beləliklə, şair Molla Cümə xalq arasında hörmət qazanır, nüfuz sahibi olur, həm aşıq kimi məşhurlaşır. Molla Cümə ədəbi yaradıcılıq fəaliyyətini davam etdirir, sadə dildə, oxunaqlı əsərlər yaratmağa başlayır. Onun yaratdığı əsərlər dillər əzbərinə çevrilir, xalq arasında dildən-dilə ötürülür, məşhurlaşırdı. Şair gəraylı, qoşma, təcnis, divani, müxəmməs, bayatı, deyişmə, qəzəl, eləcə də dastan və başqa janrlarda oxunaqlı əsərlər yaratmışdır.

El arasında deyilənlərə görə Molla Cümənin yeganə oğlu Həsənin vaxtsız vəfatı şairi sarsıtmışdır. O, artıq el şənliklərində çıxışlar etmirdi. Oğlunun ölümündən bir neşə il sonra, 1920-ci ildə 61 yaşında yeni yaranmış Şura höküməti tərəfindən Molla Cümə amansızcasına qətlə yetirilir.

**Əsas mətn:** Hamımıza məlumdur ki, Azərbaycan ədəbiyyatı zəngin ədəbi irsə malikdir. Azərbaycan xalqının ədibləri, xalq ədəbiyyatının nümayəndələri 1400 il ərəb əlifbasında yazıb-yaratmışlar. Azərbaycan xalqı dünya ədəbiyyatına Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Nəsrəddin Tusi və onlarla, yüzlərlə dahilər nəsib etmişdir. Azərbaycanda ədəbiyyat sahəsi zəngin irsə malikdir. Bununla bərabər xalq ədəbiyyatı bu sahənin geniş yayılmış formalarından biri hesab olunur. Xalq ədəbiyyatının tərəfimizdən öyrənilərək geniş oxucu kütləsinə çatdırılması prosesi bu xəzinənin böyük əhəmiyyəti və qiyməti olduğundan xəbər verir. Bu sahədə toplanmış materialları diqqətlə nəzərdən keçirsək, burada müxtəlif şəkillərdə xalqımızın iztirablarını, ağrılarını və ağır yaşayış tərzini görə bilərik. “XIX əsr Azərbaycan xalqına Abbasqulu ağa Bakıxanov, professor Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, M.C.Topçubaşov, İsmayıl bəy Qutqaşınlı, Aşıq Ələsgər, Molla Cümə və çox sayda digər ədib, yazar, şair, yazıçı və dramaturqlar bəxş etmişdir. XIX əsrdə relizmin əsas yaradıcılıq metodu, habelə ədəbi cərəyan kimi təşəkkül tapması və inkişaf etməsi qanunauyğun bir hadisə idi. Bu hadisələr tarixi gedişin inkişafından doğurdu. Fəlsəfədə materializm idealizmlə mübarizədə böyüyüb inkişaf etdiyi kimi, ədəbiyyatda da qabaqcıl ideyalar və cərəyanlar mürtəce dini-idealist baxışlarla mübarizədə inkişaf etmişdir. Ədəbiyyat sahəsi həmişə kəskin ideya toqquşmalrına geniş meydan olmuşdur” [1.s.3-9]. Nəhayət, 1918-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra, dövlət dilini və əlifbasını bərpa etmişdir. Bölgələrdə Azərbaycanın klassiklərinin əsərlərinin toplanması

ilə bağlı təyin olunmuş komissiya heyəti səfərbər edilmişdir. Komissiya heyəti Azərbaycanın klassiklərinin qeyri-mətbu əlyazmalarının toplanması ilə məşğul olurdu. Onlar tərəfindən çox sayda əlyazmalar toplanaraq tədqiq eilmiş və qədirbilən xalqımıza çatdırılmışdır. Xüsusi önəm bu vaxta qədər tədqiqatçıların nəzərindən kənarda qalan xalq ədəbiyyatına yönəlmişdir. Xalq ədəbiyyatı Azərbaycanda zəngin ədəbi irsə malikdir. Dövrümüzə qədər nəşr edilmiş kitablar istisna olmaqla, xalq ədəbiyyatının tərəfimizdən öyrənilməsinə ehtiyac vardır. Bu sahənin öyrənilməsində 100(yüz) ildən çox vaxt keçməsinə baxmayaraq, hələ də tədqiq edilməmiş əlyazmalar, toplanmamış məlumatlar qalmaqdadır. XX əsrin əvvəllərində xalq ədəbiyatının formalaşmasında müstəsna xidmətləri olan ziyalılarımız vardır. Onlardan, Salman Mümtaz, Hümmət Əlizadə, Həmid Araslı, Hüseyn Mehdi, Əhməd Cavad, S.Axundov, Əhliman Axundov, Feyzulla Qasımzadə, Ərtoğrol Cavid və başqalarını göstərmək olar. Adı çəkilən və digər tədqiqatçılar dövrünün məhsuldar xalq şairi, aşıq Molla Cüməni də yaddan çıxartmamışlar. Molla Cümə 1859-cu ildə Azərbaycanın şimal qərb bölgəsində Şəki rayonunun Layısqı kəndində anadan olmuşdur. Yaşadığı bölgədə ziyalıları “Molla” yaxud “Mirzə” adlandırardılar. Məhz ona görə də şairə Molla Cümə deyərək müraciət edərdilər.

Beləliklə, yuxrıda adları qeyd edilən və digər xalq ədəbiyyatının toplayıcıları Azərbaycanın müxtəlif bölgələrində yaradıcı insanların, elm və mədəniyyət adamlarının əsərlərini toplayaraq dövlət səviyyəsində nəşr etməyə başladılar. Tədqiqatçıların yaradıcılığına müraciət etdikləri şairlərdən biri də Molla Cümə idi. Bolgədə bu sahədə axtarışlar aparan tədqiqatçıların tapıntılarını nəzərdən keçirsək, onlar arasında ən məhsuldar şairlərdən biri olan Molla Cüməyə xüsusi önəm verildiyini görərik. Molla Cümə o şairlərdəndir ki, bir çox ədəbi janrlarda mükəmməl əsərlər yarada bilmişdir. Onlardan: qoşma, təcnis, gəraylı, müxəmməs, bayatı, nağıl və dastanlarını, xüsusilə də sallama gəraylılarını, gözəlləmərini və müxtəlif xarakterli deyişmələrini göstərmək olar.

Molla Cümənin əsərlərinin tədqiq tarixinə nəzər salsaq görərik ki, onun məhsuldar yaradıcılıq dövrü XIX əsrə təsadüf edir. Onun əsərləri bir çox tədqiqatçılar tərəfindən tədqiq edilmişdir. Şairin naməlum əsərlərinin tədqiqi dövrümüzə qədər davam edir. Tədqiqatçılarımız hər dəfə Molla Cümənin yeni-yeni əsərlərini tapıb ortaya çıxarırlar. Bu isə şairin yaşadığı dövrdə onun zəngin ədəbi xəzinəsi olduğundan və xalq arasında çox geniş yayılmasından xəbər verir. Molla Cümə əsərlərinin nəşri və tədqiq tarixinə nəzər salasaq bu tarixin 100(yüz) ildən çox bir vaxt çərçivəsinə təsadüf etdiyinin şahidi olarıq. Molla Cümə əsərlərinin nəşr və tədqiq tarixi ilə bağlı tərəfimizdən aparılan tədqiqatlar zamanı müəyyən edilmişdir: **Hümmət Əlizadə** tərəfindən toplanmış, H.Mehdi və Ə.Cavad tərəfindən redaktə edilərək AZƏRNƏŞR-in Bədii ədəbiyyat şöbəsi tərəfindən 1935-ci ildə Bakıda nəşr edilmiş “Aşıqlar” toplusunun 1-ci cildinin 155-193cü səhifələrində Molla Cüməyə məxsus, müxtəlif janrlarda yazılmış 30(otuz) şeiri ilk dəfə olaraq nəşr edilmişdir. [2.s.155-193]. Salman Mümtaz tərəfindən toplanmış, S.Hüseyn tərəfindən redaktə edilərək AZƏRNƏŞR-in Bədii ədəbiyyat şöbəsi tərəfindən 1935-ci ildə Bakıda nəşr edilmiş “El şairləri” toplusunun 1-ci hissəsinin 38-39-cu səhifələrində Molla Cüməyə məxsus “Sərçələr” şeiri nəşr edilmişdir. [3.s.38-39]. Hümmət Əlizadə tərəfindən toplanmış, AZƏRNƏŞR-in Bədii ədəbiyyat şöbəsi tərəfindən 1936-cı ildə Bakıda nəşr edilmiş “Aşıqlar” toplusunun 2-ci cildinin 155-193cü səhifələrində Molla Cüməyə məxsus, müxtəlif janrlarda yazılmış 80(səksən) şeiri nəşr edilmişdir. [4.s.159-221]. S.Axundov tərəfindən toplanmış, Azərbaycan SSR Mədəniyyət Nazirliyi Respublika Xalq Yaradıcılığı evi tərəfindən 1957-ci ildə Bakıda nəşr edilmiş “Aşıqlar” toplusunun 74-76-cı səhifələrində Molla Cüməyə məxsus, müxtəlif janrlarda yazılmış 6(altı) şeiri nəşr edilmişdir. [5.s.159-221]. S.Axundov tərəfindən toplanmış, Azərbaycan SSR Mədəniyyət Nazirliyi Respublika Xalq Yaradıcılığı evi tərəfindən 1960-cı ildə Bakıda nəşr edilmiş “Aşıqlar” toplusunun 3-cü hissəsinin 48-51-ci səhifələrində Molla Cüməyə məxsus 9(doqquz) qoşma nəşr edilmişdir. [6.s.48-51].

Əhliman Axundov tərəfindən toplanmış, Azərbaycan dövlət nəşriyyatı tərəfindən 1964-cü ildə Bakıda nəşr edilmiş "Telli saz ustaları" toplusunun 90-95-ci səhifələrində Molla Cüməyə məxsus 5 (beş) müxəlif şeir nəşr edilmişdir. [7.s.90-95].

1920-1930-cu illərdə el şairlərinin şifahi dildən, yaxud əlyazma nüsxələrinin toplanmasında Azərbaycan hökümətinin qərarı ilə bölgələrə səfərbər edilmiş komissiya heyətinin rəhbərlərindən bir də Ərtoğrol Cavid olmuşdur. Ərtoğrol Cavid və onun rəhbərlik etdiyi tədqiqat qrupu hesab edirəm bu sahədə çox məhsuldar iş görmüşlər. Onlar el şairlərinin yaradıcılığını tədqiq edərkən bölgədə və regionda nüfuz sahibi olan Molla Cümə yaradıcılığına xüsusi həssaslıqla yanaşmışlar. Tədqiqatlar zamanı Molla Cümənin çox sayda əlyazmaları aşkar edilmişdir. Bundan əlavə şifahi dildən və Molla Cümənin bilicilərindən də kifayət qədər məlumatlar toplanmışdır. Filologiya elmləri doktoru Gülbəniz Babaxanlı tərəfindən Ərtoğrol Cavidin 12 cildlik külliyatı hazırlanmışdır. Külliyatın 9-cu cildi bütövlükdə Molla Cümə yaradıcılığına həsr edilmiş, kitabda tam olaraq onun əsərləri nəşr edilmişdir. Əsərlər müxtəlif janrlarda yazılmış və ilk dəfə olaraq toplum şəklində çap olunmuşdur. Burada şairin müxtəlif forma və janrlarda yazılmış çox sayda əsərləri toplanmışdır. Onlardan: həcvlər-3, gözəlləmələr-50, digər əsərləri-69, dastan-3, deyişmə-3, gözəllər haqqında- 12, dodaxdəyməz-1, müxtəlif şeirlər-5. Ümumilikdə şairin 146 əsəri bu cilddə nəşr edilmişdir. [8. 294s.]. Göründüyü kimi Molla Cümə əsərləri külli miqdarda ilk dəfə 1930-1940-cı illərdə Ərtoğrol Cavid tərəfindən toplanmışdır. El şairlərinin əsərlərinin tədqiqatçıları bununla kifayətləmnəmiş, Molla Cümə əsərlərinin tədqiqi istiqamətində işləri davam etdirmişlər. Belə tədqiqatçılardan Paşa Əfəndiyev və Şərif İdrisovu göstərmək olar. Onlar tərəfindən 1980-cı illərdə Molla Cüməyə məxsus əsərlər toplanaraq 1983-cü ildə Bakı şəhərində "Yazıçı" nəşriyyatında çap edilmişdir. Bu kitabda: 25-gəraylı, 74-qoşma, 31-divani, 20 müxəmməs, 18-müxtəlif şeirlər, 21- müxəmməs, mücəddəs, mürəbbə, təpcibənd, zəncirləmə, dübeyti, misal, deyişmə nəşr edilmişdir. Ümumilikdə kitabda 181 əsər nəşr edilmişdir.

Molla Cümə əsərlərinin tam olaraq tədqiqi və üzə çıxardılması daima tədqiqatçılarımızın diqqət mərkəzində olmuşdur. Bu sahədə son dövrün ən məhsuldar tədqiqatçılarından əməkdar elm xadimi, professor Paşa Əfəndiyevi göstərmək olar. Molla Cümənin Paşa Əfəndiyev tərəfindən toplanmış əsərləri ilk dəfə "Molla Cümə. Əsərləri" adlı kitabda 1995-ci ildə Bakıda "Maarif" nəşriyyatında çap edilmişdir. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə 2006-cı ildə Bakıda "Şərq-Qərb" nəşriyyatında bu kitab təkrar nəşr edilərək ölkə kitabxanalarına paylanmışdır. Bu kitab Ərtoğrol Cavidin "El şairləri və aşıqları" barəsindəki külliyatının 9-cu cildindən sonra Molla Cümə yaradıcılığını geniş əhatə edən iknci kitabdır. Kitabda 53-gəraylı, 305-qoşma, 48-divani, 69-müxəmməs, 51-təcnis, 6-deyişmə, 33-müxtəlif şeir, 10-qəzəl, 64 bənd-bayatı və 2-dastanı nəşr edilmişdir. [1. 648s.]. Göründüyü kimi "Molla Cümə. Əsərləri" kitabı dövrümüzə qədər Molla Cümənin əsərləri toplanmış və nəşr edilmiş ən böyük külliyatıdır. Paşa Əfəndiyev Molla Cümənin yaradıcılığını tədqiq edərkən əldə etdiyi məlumatlar və bunun əsasınada çap olunan 648 səhifəlik "Molla Cümə. Əsərləri" kitabı ilə kifayətlənməmişdir. O, Molla Cümənin həyatı və yaradıcılığı barədə tədqiqatlarını davam etdirmişdir. Paşa Əfəndiyev 2018-ci ildə nəşr etdirdiyi "Folklorşünaslıq məsələləlri" kitabında 193-216-cı səhifələrdə Molla Cümə yaradıcılığı barədə məlumatlara geniş yer ayırmışdır. Tədqiqatçı alim Paşa Əfəndiyev tərəfindən Molla Cümə və Molla Pənah Vaqif yaradıcılığındakı oxşar və fərqli cəhətlər böyük məharətlə müqayisəli təhlil formasında təsvir edilmişdir. [9. 648s.].

Bundan başqa Molla Cümənin tədqiqatçılarından filologiya elmləri doktoru Mövlud Yarəhmədovu göstərmək olar. Mövlud Yarəhmədov Molla Cümə yaradıcılığı ilə məşğul olmuş, onun əlyazmalarını toplayaraq tədqiq etmiş, Azərbaycan əlifbasına çerilmiş əsərlərini 3(üç) cildə

ayırmışdır. Onlardan, 1-ci cildi hazırlanaraq 2000-ci ildə Bakıda "Örnək" nəşriyyatında çap edilmişdir. Kitabda Molla Cümənin müxtəlif forma və janrlarda yazılmış kifayət qədər çox saydaəsərləri yer almışdır. Onlardan: 50 - gəraylı, 1 - iki cür qafiyə, 1 - üç cür qafiyə, 7 - qoşma, 18 - İsmi Pünhana həsr edilmiş şeir, 10 - müxtəlif şəxslərə ünvanlanmış şeir, 204 - müxtəlif şeirlər, 7 - döşəmələr və qoşayarpaqlar, 25 - öyüdnamələr, nəsihətnamələr, şikayətnamələr, 4 - varsağılar, 5 - müşairlər, 2 -qoşma-müstəzadlar, 3 - "dedim-dedi"lər, 5 - deyişmələr kitabda nəşr edilmişdir. [10.227s.]. Kitabın 2-ci və 3-cü cildləri hələlik nəşr edilməmişdir. Mövlud Yarəhmədov tərəfindən Molla Cümənin ədəbi irsi ilə bağlı toplanmış digər məlumatlar tədqiqatçının şəxsi arxivində saxlanılır. Kitabın nəşr edilməmiş 2-ci və 3-cü cildləri ilə bağlı materiallar onun vəfatından sonra şəxsi arxivində qalmışdır. Hələlik bu barədə məlumatları əldə edə bilməmişik. Tərəfimizdən aparılan tədqiqatlar zamanı digər mənbələrdə də Molla Cümənin qeyri-mətbu əlyazmalarının olduğu barədə məlumatlar almışıq, ancaq qeyri müəyyən səbəblərdən... əlyazmaları əldə edə bilməmişik. Göründüyü kimi Molla Cümənin ədəbi irsinin tam ortaya çıxarılması ilə bağlı hələ tədqiqatçılarımız qarşısında çox işlər durur. Güman edirik ki, tərəfimizdən əldə edə bilmədiyimiz məlumatlar gələcək tədqiqatçılar tərəfindən aşkar edilərək qədirbilən xalqımıza çatdırılacaq.

Molla Cümənin əsərləri ilə bağlı növbəti kitab Azərbaycan Aşıqlar Birliyinin təşəbbüsü ilə "İsmi Pünhan" adında 2016-cı ildə Bakı şəhərində "Azərbaycan Tarixçiləri İctimai Birliyi" tərəfindən nəşr edilmişdir. Kitabı Əməkdar elm xadimi, professor, Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı və filoloq-alim Elman Əzizov nəşrə hazırlamışlar. Kitabda,10-ustadnamə, 20-gəraylı, 75-qoşma, 21-divani, 16-müxəmməs, 14-təcnis, 4-qəzəl nəşr edilmişdir. Ümumilikdə şairin 160 şeri, onun 160 illik yubileyinə hədiyyə olaraq nəşr edilmişdir. [11. 226s.].

Novruz Bəkirov "Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı" adlı monoqrafiyasında Molla Cümə yaradıcılığının təhlilinə geniş yer ayırmışdır. Burada Molla Cümənin yaşadığı dövrdə təkcə yaşadığı bölgədə deyil, Azərbaycanın digər bölgələrində, Dağıstanda, İranda, Türkiyədə və qonşu Gürcüstanda geniş təbliğ olunduğunu və məşhur olduğunu real faktlara istinadən qeyd edir. Kitabda gürcü aşıqları tərəfindən gürcü əlifbasında Molla Cümənin çox sayda şeirlərinin yazıldığı qeyd olunur. Burada Molla Cümənin müxtəlif gürcü aşıqları tərəfindən yazılmış 38 şeri və "Cəlali Məhəmməd və Tavat xanımın nağılı" adlı bir dastanı yer almışdır. [12. 226s.].

Tərəfimizdən aparılan tədqiqatlar zamanı Molla Cüməyə məxsus 4(dörd) yeni qeyri-mətbu əlyazma dəftər ortaya çıxarılmışdır. Əlyazmalar şairin yaşadığı bölgəyə fərdi ekspedisiyalar zamanı müxtəlif şəxslərdən əldə edilmişdir. Onlardan: Birinci əlyazma dəftər Zaqatalanın Kəpənəkçi kəndindən Aşıq Murtuzəlinin nəticəsi Xuraman xanım Şabanovadan, ikninci əlyazma dəftər Qax rayonu İlisu kəndindən Təhməzov Yunisdən, üçüncü əlyazma dəftər Şəkinin Aşağı Göynük kəndi Vədud Hacıyevdən, dördüncü əlyazma dəftər Şəkinin Layısqı kəndindənMolla Cümənin nəticəsi Elman Əzizovdan əldə edilmişdir.Dəftərlər tərəfimiz- dən tədqiq edildikdən sonra orada olan əsərlər barədə məlumatlar müəyyən edilmişdir. Tədqiq edildikdən sonra dəftərlər AMEA-n Əlyazmalar İnstituna təhvil verilmişdir. İnstitut tərəfindən əlyazma dəftərlər "D 1020/1, 2, 3, 4" saxlama vahidi ilə qeydiyyata alınmışdır. Əlyazmalardakı əsərlər tərəfimizdən araşdırılaraq Azərbaycan əlifbasına çevrilmiş, orada olan əsərlər ümümilkdə belə müəyyən edilmişdir: qoşma (təmmət-qafiyə) – 394, beyt (qoşma) – 41, bayatılar-85, müxəmməslər-94, divani-69, təmmət-təcnis-49, təxmis-42, deyişmə-1, gözəlləmə-7, müxtəlif şeirlər-37, qəzəl-12, münacat-2, gəraylılar-49 olmuşdur. Ümumilikdə 4(dörd) əlyazma dəftərdə 882 adda əsər müəyyən edilmişdir. [13].

Qeyd edilən faktlar şair Molla Cümənin zəngin ədəbi irsə malik olduğunu bir daha sübut edir. Hesab edirik ki, şairin yaradıcılığı tədqiqatçılar tərəfindən tam tədqiq edilməmiş, onun ədəbi irsi sona qədər üzə çıxarılmamışdır. Bu sahədə tədqiqatçılar qarşışısında mühüm vəzifələr

qalmaqdadır. Azərbaycanın klassik aşıq-şairlərindən olmuş Molla Cümənin ədəbi irsinin tam və dəqiq tədqiq edilərək üzə çıxardılması hesab edirik ki, hər bir vətənpərvər istər elm adamı, istərsə də bu barədə məlumatı olan hər bir vətəndaş qarşısında vicdan borcu kimi onu narahat etməlidir. Şəxsi arxivlərdə olan əlyazmalr barədə məlumatlı olan hər bir vicdanlı adam bu məlumatların geniş auditoriyaya çatdırılması məqsədilə, məlumatların aidiyyatı üzrə təqdim olunaraq ortaya çıxarılmasında köməklik etmələrini məqsədəuyğun hesab edirik. Ən azı belə insanlara inanırıq!

**Nəticə:**

Molla Cümə XIX əsrin sonları XX əsrin əvvəllərində yazıb-yaratmış klassik aşıq-şairlərdəndir. O, Azərbaycan klassik ədəbiyyatına yenilikçi aşıq-şair kimi daxil olmuşdur. Molla Cümə xüsusi istedad sahibi olaraq gənc yaşlarından poeziyaya meyilli olmuş və bu sahədə yaradıcılıq fəaliyyətinə başlamışdır. O, şairliklə bərabər aşıq yaradıcılığı ilə də məşğul olmuş, aşıqlıq məktəbi yaratmış, eyni zamanda özü də aşıqlıq etmişdir. Molla Cümə Aşıq Ələsgərlə bərabər dövrünün ən məşhur aşıqlarından sayılırdı. Onun ədəbi irsi zəngin və çoxşaxəlidir. Molla Cümə bir-çox ədəbi janrlarda əsərlər yaratmış, əsərləri sadə dildə yazıldığından oxucular tərəfindən asanlıqla oxunardı. Məhz elə buna görə də Molla Cümə əsərləri geniş oxucu kütləsi üçün əlçatan və maraqlı idi. Onun əsərləri yaşadığı bölgədə, Azərbaycanın digər bölgələrində, Dağıstan, İran, Türkiyə və Gürcüstanda məşhur olmuşdur. Molla Cümə yaradıcılığı çox sayda araşdırıcılar tərəfindən araşdırılır, hər dəfə onun qeyri-mətbu yeni əsərləri ortaya çıxarılır, öz oxucularına çatdırılır. Molla Cümə əsərləri çox sayda kitablarda nəşr edilmişdir. Onlardadan, 1935-ci il “Aşıqlar”, “El şairləri”, 1936-cı il “Aşıqlar”- 2 cilddə, 1957-ci il “Aşıqlar” –toplusu, 1960-cı il “Aşıqlar” –toplusu, 1960-cı il “Telli saz ustaları”, 2011-ci il “Ərtoğrol Cavid. Külliyat - 9-cu cild”, 1955-ci il “Molla Cümə. əsərləri” (təkrar nəşr-2006-cı il), 2000-ci il “Molla Cümə. Əsərləri”, 2018-ci il “Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı” kitabları şairin yaradıcılığının zəngin, ədəbi irsinin çoxşaxəli olmasının bariz nümunəsidir. Bundan başqa son zamanlar tərəfimizdən aparılan tədqiqatlar zamanı şairin yeni 4(dörd) əlyazma dəftəri aşkar edilmişdir. Bu dəftərlər ərəb qrafikasından azərbaycan qrafikasına çevrilmiş, orada müxtəlif ədəbi janrlarda şairin 882(səkkiz yüz səksən iki) əsəri müəyyən edilmişdir.

İnanırıq ki, 1920-ci ildə amansızcasına qətlə yetirilmiş şair Molla Cümənin ədəbi irsi tam olaraq məhv edilməmişdir. Bu sahədə Molla Cümənin ədəbi irsini araşdıran tədqiqatçılar onun ədəbi irsinin tam tədqiqində, qeyri-mətbu əsərlərinin ortaya çıxarılmasında bilik və bacarıqlarını əsirgəməyəcəklər.

**Ədəbiyyat :**


1. Molla Cümə. Əsərləri /tərt.: Paşa Əfəndiyev. Bakı: Şərq-Qərb, 2006, 648 s.
2. Aşıqlar. C.1 /topl. Hümmət Əlizadə. Bakı: Azərnəşr, Bədii əd-t şöbəsi, 1935, s.155-193.
3. Aşıqlar. C.2 /topl. Hümmət Əlizadə. Bakı: Azərnəşr, Bədii əd-t şöbəsi. 1936, s.159-221 .
4. Aşıqlar. H.2 /topl.S.Axundov /Azərbaycan Mədəniyyət Nazirliyi.Respublika Xalq Yaradıcılığı evi. Bakı,1957, s.48-51.
5. Aşıqlar.H.3 /topl. S.Axundov /Azərbaycan Mədəniyyət Nazirliyi.Respublika Xalq Yaradıcılığı evi. Bakı,1960, s.48-51.
6. .El şairləri. H.1 /topl.S.Mümtaz. Bakı:Azərnəşr, Bədii əd-t şöbəsi,1935, s.38-39.
7. Telli saz ustaları /tərt.ed. Əhliman Axundov. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, s.90- 96.
8. Azərbaycan aşıq yaradıcılığı və Ərtoğrol Cavid. Azərbaycan qeyri-maddi-mədəniyyət abidələri və Ərtoğrol Cavid. 12 cilddə. C.9 /tərt. və elmi red.: Gülbəniz Babaxanlı. Bakı: Çaşıoğlu,2011,293 s.
9. Əfəndiyev Paşa. Folklorşünaslıq məsələləri. Bakı.“Ləman”NP MMC,2018, 428s.
10. Molla Cümə.Seçilmiş əsərləri /tərt.:Yarəhmədov M. Bakı: “Örnək”,2000, 227 s.

11. Molla Cümə. İsmi Pünhan /tərt.: M.Qasımlı, E.Əzizov.Bakı: "Azərb.Tarixçiləri İctimai Birliyi", 2016, 226 s.
12. Bəkirov Novruz. Azərbaycan-gürcü ədəbi əlaqələri və Molla Cümə yaradıcılığı. Bakı: Nafta press, 2018, 226 s.
13. Molla Cümə. Əsərləri : əlyazma /AMEA-nın Məhəmməd Füzüli adına Əlyazmalar İnstitutu. Sax.vahidi: "D 1020/1, 2, 3, 4".

***Бекиров Новруз***

**ЛИТЕРАТУРНОЕ НАСЛЕДИЕ МОЛЛЫ ДЖУМЫ, ИСТОРИЯ ИЗДАНИЯ И ИССЛЕДОВАНИЯ ЕГО ПРОИЗВЕДЕНИЙ (***на основе произведений и документов)*

**Резюме**

Молла Джума является классическим поэтом-ашугом, писавшим и творившим в конце XIX в начале XX вв. Он вошел в классическую азербайджанскую литературу как ашуг, поэт-новатор. Наряду с поэзией он также занимался ашугским творчеством, создал Ашугскую школу, в то же время и сам был ашугом. Молла Джума создавал произведения во многих литературных жанрах, и благодаря тому, что его произведения были написаны на доступном языке, они с легкостью воспринимались читателями. Творчество Моллы Джумы исследуется многими исследователями, каждый раз выявляются его новые еще не опубликованные произведения, которые являются ярким примером богатого, многогранного литературного наследия поэта. В ходе проведенных нами недавних исследований были обнаружены 4 (четыре) новые рукописные тетради поэта. Эти тетради были переписаны из арабской графики на азербайджанскую графику, где было установлено 882 (восемьсот восемьдесят два) произведения поэта, написанные в различных литературных жанрах.

**Ключевые слова:** *Молла Джума, классика, литературное наследие, история публикации, исследования.*

***Bakirov Novruz***

**THE ARTISTIC HERITAGE OF MOLA JUMA, HISTORY OF PUBLICATION AND RESEARCH OF WORKS** (based on documents and works)

**Summary**

Molla Juma is one of the classical ashug-poets, wrote and created at the end of the XIX century - in the beginning of the XX. He entered to the Azerbaijan classical literature as an innovative ashug-poet. He was also engaged ashug activity together with the poetry, created Ashug School, at the same time he also was an ashug. Molla Juma created works on some literal genres, his works were read easily by the readers as having simple language. Molla Juma's creative activity is investigated by many investigators, regularly his non-published new works are revealed, are reached to his readers. During the investigations, realized by us recently, poet`s 4 (four) manuscript notebooks were revealed. This notebooks were translated from Arabian alphabet into Azerbaijani alphabet, poet's 882 (eight hundred eighty two) works were determined in different literal genres.

**Keywords:** *Mullah Juma, classical, literary heritage, history of publication, research.*

.

Redaksiyaya daxil olma tarixi: 11.03.2020
Çapa qəbul olunma tarixi: 17.06.2020

Filologiya üzrə elmlər doktoru, professsor **Paşa Kərimov**
tərəfindən çapa tövsiyə olunmuşdur.